# QRANT MÜSABİQƏSİ HAQQINDA

«EU Bridge» layihəsi çərçivəsində Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (IFRC) Avropa Ittifaqının (Aİ) maliyyə dəstəyi ilə Vətəndaşlar Cəmiyyətləri (VCT) üçün Azərbaycanda Layihə Müsabiqəsi elan edir.

«EU Bridge» layihəsinin **ümumi məqsədi** bacarıqlı və təsir etmə imkanına malik tərəflər olaraq VCT-lərin humanitar yardım və inkişaf prosesində iştirakını artırmaq və onların icmadakı həssaslıqlarının azaldılmasındakı rollarını yerinə yetirə bilmələri üçün potensiallarını və bacarıqlarını gücləndirməkdir.

**Qrant müsabiqəsinin əsas məqsədləri aşağıdakılardır:**

1. İnklüziv, gender aspektlərini nəzərə alan və yaxud gender baxımından bərabərliyi və dayanıqlı icma əsaslı inkişafı stimullaşdırmaq;
2. Yerli inkişafın iştirakçıları və həssas əhali qruplarına xidmətlər təmin edən subyektlər olaraq, VCT-lərin daxili potensialını, təşkilati quruluşunu və icra potensialını gücləndirmək;
3. Əhalinin ən həssas qruplarının, o cümlədən məcburi köçkünlərin həyatlarında nəzərəçarpan və ölçülə bilən transformasiyaya töhfə vermək;
4. Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyinə dəstək olaraq milli və yerli inkişaf proseslərinə VCT-lərin töhfəsini artırmaq;

Qrant müsabiqəsi əhalinin ən həssas qruplarına, o cümlədən əlilliyi olan şəxslərə və məcburi köçkünlərə əsas yaşayış vasitələrinin və bərpa dəstəyinin təmin edilməsi, o cümlədən dolanışıq imkanlarına çıxışın yaxşılaşdırılması və benefisiarların sosial-iqtisadi imkanlarının genişləndirilməsi sahəsində layihə fəaliyyətlərini icra etməkdə seçilmiş VCT-lərə dəstək göstərəcək. Dəstək yaşayış vasitələri və bərpa yönümlü tədbirlər, o cümlədən yaşayış vasitələrinin təmin edilməsi, resursların bərpa edilməsi, bacarıqların artırılması və karyera məsləhətləşməsi, eləcə də yeni gəlir gətirən fəaliyyətlər/mikro-sahibkarlıq subyektləri vasitəsilə yaşayış vasitələrinin şaxələndirilməsi formasında olacaq.

**Qrant çərçivəsində layihələrin icrasının aşağıdakı nəticələri verəcəyi gözlənilir:**

1. Yerli inkişaf proseslərində icma əsaslı və yerli təşkilatların iştirakının artması;
2. Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında təkrarlana və ya genişləndirilə biləcək qabaqcıl təcrübələrin yaradılması;
3. Yerli inkişaf gündəliyi çərçivəsində çoxtərəfli tərəfdaşlıq və koalisiyaların qurulması;
4. VCT-lərin təşkilati mühitinin və daxili inkişafının formalaşdırılması, yaxud təkmilləşdirilməsi;
5. İcmalar tərəfindən idarə olunan inklüziv və genderə həssas təşəbbüslərin sayının artması.

Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

IFRC

YOUR NGO

Public